**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin**

**Q Ə R A R I**

**№ 8**

**Bakı şəhəri** **18 aprel 2012-ci il**

**"**Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2011-ci il 15 noyabr tarixli 249-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 22 dekabr tarixli 1918 nömrəli Sərəncamının 2-ci hissəsinə əsasən və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 noyabr tarixli 184 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktlarının hazırlanması və qəbul edilməsi Qaydası"nın 2.4-cü bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin təklifləri nəzərə alınmaqla Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti

**Q Ə R A R A  A L I R:**

**1.** "Monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər tərəfindən məlumatların Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinə təqdim olunması Qaydaları" təsdiq edilsin (əlavə olunur);

**2.** Hüquq departamentinə (R.Məlikova) tapşırılsın ki, bu Qaydaları 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin;

**3.** Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin 31.05.2010-cu il tarixli, 001 nömrəli qərarı ilə təsdiq edilmiş və Ədliyyə Nazirliyində 03.06.2010-cu il tarixdə 3867 nömrəli şəhadətnamə verilməklə dövlət qeydiyyatına alınmış "Monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər tərəfindən məlumatların Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinə təqdim olunması Qaydaları" ləğv edilsin;

**4.** Bu Qərarın icrasına nəzarət Mərkəzi Bankın Baş direktoru R.Orucova həvalə edilsin.

**Sədr** **Elman Rüstəmov**

**“Təsdiq edilmişdir”**
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 8
18 aprel 2012-ci il

**Sədr**

______________________

**Elman Rüstəmov**

# MONİTORİNQ İŞTİRAKÇILARI VƏ MONİTORİNQDƏ İŞTİRAK EDƏN DİGƏR ŞƏXSLƏR TƏRƏFİNDƏN MƏLUMATLARIN AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ BANKI YANINDA MALİYYƏ MONİTORİNQİ XİDMƏTİNƏ TƏQDİM OLUNMASI QAYDALARI

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 11-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 noyabr tarixli 184 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktlarının hazırlanması və qəbul edilməsi Qaydası"nın 2.4-cü bəndinə əsasən hazırlanmışdır.

1.2. Bu Qaydalar monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər (bundan sonra birlikdə - monitorinq subyektləri) tərəfindən pul vəsaitləri və ya digər əmlakla əməliyyatlara dair Qanunun 11.1-ci maddəsində nəzərdə tutulmuş məlumatların (bundan sonra - məlumatlar) Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinə (bundan sonra - Maliyyə Monitorinqi Xidməti) təqdim olunması qaydalarını müəyyən edir.

1.3. Maliyyə Monitorinqi Xidmətinə verilən məlumatlar monitorinq subyektləri tərəfindən məxfi saxlanılır. Qeyd olunan məlumatlar monitorinq subyektlərindən yalnız cinayət prosesini həyata keçirən orqanlar tərəfindən cinayət təqibi ilə əlaqədar tələb edilə bilər. Bu halda göstərilən məlumatlar yalnız məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında verilir.

1.4. Maliyyə Monitorinqi Xidməti təqdim olunmuş məlumatların məxfiliyini və yalnız Qanunla nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsi üçün istifadəsini təmin edir, habelə bu məlumatların təhlükəsizliyinin təmin olunması sistemini təşkil edir.

## 2. ƏSAS ANLAYIŞLAR

**2.1.** Bu Qaydaların məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə edilir:

2.1.1. **Maliyyə Monitorinqi Xidmətinin Avtomatlaşdırılmış Məlumat-İnformasiya Sistemi (AMİS)** - cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində

təqdim olunmuş məlumatların avtomatlaşdırılmış qaydada qeydiyyata alınması, vahid şəkildə toplanması, emalı və sonrakı təhlili məqsədi ilə Maliyyə Monitorinqi Xidməti tərəfindən təşkil edilmiş xüsusi təyinatlı informasiya sistemidir;

2.1.2. **məsul şəxs** - hüquqi şəxs olan monitorinq subyektlərində rəhbərlik, habelə struktur bölmələrinin rəhbərliyi səviyyəsində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət üzrə daxili qayda və prosedurların həyata keçirilməsinə nəzarət etməyə, Maliyyə Monitorinqi Xidməti ilə məlumat mübadiləsini həyata keçirməyə, həmçinin monitorinq olunmalı əməliyyatlarla bağlı müvafiq hesabatları hazırlamağa və təqdim etməyə məsul olan fiziki şəxsdir.

## 3. MALİYYƏ MONİTORİNQİ XİDMƏTİNƏ TƏQDİM OLUNMALI MƏLUMATLAR

3.1. Monitorinq iştirakçıları 20 000 (iyirmi min) manat və ya ona ekvivalent xarici valyuta məbləğinə bərabər və ya bu məbləğdən yuxarı pul vəsaitləri və ya digər əmlakla nağd şəkildə həyata keçirilən əməliyyatlar barədə bu Qaydalara müvafiq olaraq Maliyyə Monitorinqi Xidmətinə məlumat təqdim etməlidirlər.

3.2. Məbləğindən asılı olmayaraq aşağıdakı pul vəsaitləri və ya digər əmlak, onlarla əməliyyatlar və ya belə əməliyyatların aparılmasına cəhdlər barədə məlumatlar monitorinq iştirakçıları tərəfindən Maliyyə Monitorinqi Xidmətinə təqdim olunur:

3.2.1. pul vəsaitlərinin və ya digər əmlakın cinayət yolu ilə əldə edilməsi və ya terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı olmasına şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan əməliyyatlar;

3.2.2. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasında, terrorçuluğun maliyyələşdirilməsində, transmilli mütəşəkkil cinayətkarlığı, habelə silahlı separatizmi, ekstremizmi və muzdluluğu dəstəkləməsində, narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı ehtimal olunan, maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumatlarının açıqlanması tələb olunmayan dövlətlərin (ərazilərin) vətəndaşları ilə, qeydiyyat, yaşayış və ya əsas fəaliyyət yeri həmin dövlətdə (ərazidə) olan şəxslərlə, eləcə də göstərilən dövlətlərdə (ərazilərdə) qeydiyyatdan keçmiş bankda hesaba malik olan şəxslərlə əlaqədar pul vəsaitləri və ya digər əmlakla hər hansı əməliyyatlar;

3.2.3. xarici dövlətlərin siyasi xadimlərinin pul vəsaitləri və ya digər əmlakla əməliyyatları;

3.2.4. Azərbaycan Respublikasının yurisdiksiyasından kənardakı anonim hesabdan pul vəsaitlərinin daxil olması və ya Azərbaycan Respublikasının yurisdiksiyasından kənara anonim hesaba pul vəsaitlərinin köçürülməsi əməliyyatları;

3.2.5. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən siyahısı təsdiq edilmiş barələrində sanksiyalar tətbiq edilməli olan şəxslərlə əməliyyatlar;

3.2.6. tərəflərinin Qanunla müəyyənləşdirilmiş qaydada dəqiq eyniləşdirilməsinin mümkün olmadığı, müştəri və ya benefisiar barədə eyniləşdirmə məlumatlarının təqdim edilməsindən imtina olunduğu, habelə müştəri və ya benefisiarla bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığının aşkarlandığı əməliyyatlar;

*3.2.7. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən dini təşkilatların, qeyri-hökumət təşkilatlarının, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin bank hesabları üzrə əməliyyatlar və həmin təşkilatlara xarici mənbələrdən verilən maliyyə vəsaitlərinin hərəkəti.* [1]

**3.3.** Monitorinqdə iştirak edən digər şəxslər tərəfindən bu Qaydaların 3.2-ci bəndində nəzərdə tutulmuş hallarda aşağıdakı əməliyyatlara dair məlumatlar Maliyyə Monitorinqi Xidmətinə təqdim olunur:

3.3.1. daşınmaz əmlakın alqı-satqısı ilə əlaqədar əməliyyatlar;

3.3.2. müştərinin pul vəsaitlərinin, qiymətli kağızlarının və ya digər əmlakının idarə olunması ilə əlaqədar əməliyyatlar;

3.3.3. müştərinin bank və ya qiymətli kağız hesablarının idarə olunması ilə əlaqədar əməliyyatlar;

3.3.4. hüquqi şəxslərin yaradılması, onların fəaliyyətinin təmin və idarə edilməsi, bu məqsədlərlə pul vəsaitlərinin toplanmasının təşkil edilməsi, habelə hüquqi şəxslərin alqı-satqısı ilə əlaqədar əməliyyatlar.

**3.4.** Monitorinq subyektləri aşağıdakı məlumatları Maliyyə Monitorinqi Xidmətinə təqdim edirlər:

3.4.1. əməliyyatın növü;

3.4.2. əməliyyatın həyata keçirilmə tarixi (əməliyyatın icra olunub-olunmaması, icra olunubsa il, ay və gün göstərilməklə əməliyyatın həyata keçirildiyi tarix);

3.4.3. həyata keçirilən əməliyyatın məbləği və valyuta növü;

3.4.4. əməliyyat bank hesabı vasitəsilə həyata keçirildikdə həmin hesabın nömrəsi və hesaba xidmət edən bankın, onun filialının, şöbəsinin və ya digər ayrıca bölməsinin adı;

3.4.5. əməliyyatı həyata keçirən fiziki və ya hüquqi şəxsin eyniləşdirilməsi üçün monitorinq subyektləri tərəfindən alınmış zəruri məlumatlar:

3.4.5.1. fiziki şəxsə münasibətdə - şəxsiyyəti təsdiq edən sənəddə əks olunmuş məlumatlar (şəxsin soyadı, adı və atasının adı, vətəndaşlığı, onun doğulduğu yer və tarix, yaşadığı və ya qeydiyyatda olduğu yer, sənədin növü, seriyası və nömrəsi, verilmə tarixi və etibarlılıq müddəti, sənədi verən orqanın adı);

3.4.5.2. hüquqi şəxsə münasibətdə - hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyat nömrəsi və ya VÖEN-i, qeydiyyat tarixi, mənsub olduğu ölkə;

**3.4.5.3.** fərdi sahibkara münasibətdə - bu Qaydaların 3.4.5.1-ci yarımbəndində nəzərdə tutulmuş məlumatlar və VÖEN;

**3.4.6.** benefisiar haqqında məlumatlar - benefisiarın hüquqi, fiziki və ya fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olmasından asılı olaraq bu Qaydaların 3.4.4-cü, 3.4.5.1-ci, 3.4.5.2-ci və 3.4.5.3-cü yarımbəndlərində nəzərdə tutulmuş məlumatlar;

3.4.7. əməliyyat nümayəndə tərəfindən həyata keçirilirsə - bu Qaydaların 3.4.5.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məlumatlar;

3.4.8. əməliyyatın mahiyyətini, məqsədini, o cümlədən xronologiyasını təsvir edən məlumatlar;

3.4.9. əməliyyatın şübhəli olmasını şərtləndirən əsaslar.

**3.5.** Bu Qaydaların 3.4-cü bəndində nəzərdə tutulmuş məlumatlardan başqa monitorinq subyektləri tərəfindən hüquqi və ya fiziki şəxsin eyniləşdirilməsi və verifikasiyası üçün əlavə məlumatlar əldə edilmişdirsə bu məlumatlar da Maliyyə Monitorinqi Xidmətinə təqdim edilir.

## 4. MƏLUMATLARIN TƏQDİM OLUNMASI FORMASI VƏ VASİTƏLƏRİ

**4.1.** Monitorinq subyektləri tərəfindən məlumatlar bu Qaydalara 1 nömrəli Əlavədə nəzərdə tutulmuş formaya (bundan sonra - forma) daxil edilir və aşağıdakı vasitələrdən biri ilə təqdim olunur:

4.1.1. monitorinq subyektinin məsul şəxsi tərəfindən imzalanmış və möhürlə təsdiq edilmiş kağız daşıyıcıda;

4.1.2. elektron imza ilə təsdiq edilmiş elektron formatda.

**4.2.** Kağız daşıyıcıda forma aşağıdakı qaydada *tərtib olunur*: [2]

**4.2.1.** formanın elektron versiyası doldurularaq printerdə çap etməklə*, və ya*[3]

**4.2.2.** formanın diyircəkli qələmdən istifadə edilməklə əllə doldurulması yolu ilə.

**4.3.** Məlumatlar kağız daşıyıcıda aşağıdakı qaydada təqdim olunur:

4.3.1. məlumat bütövlüyü pozulmadan açılması mümkün olmayan və işıq keçirməyən kağızdan hazırlanmış zərfə qoyularaq möhürlənir;

4.3.2. zərfin üz tərəfinin yuxarı sol küncündə monitorinq subyektinin adı, ünvanı və məlumatın müvafiq forma üzrə nömrəsi qeyd olunur - zərfə iki və ya daha artıq sayda məlumat qoyulduqda, hər bir məlumatın nömrəsi ardıcıl şəkildə qeyd olunur;

4.3.3. zərfin üz tərəfinin aşağı sağ küncündə Maliyyə Monitorinqi Xidmətinin adı və ünvanı qeyd olunur;

4.3.4. zərfin üz tərəfinin yuxan sağ küncündə "MƏLUMAT" qeydi aparılır;

4.3.5. zərf rəsmi təqdimetmə qaydasında və ya sifarişli poçt rabitəsi vasitəsilə bildirişli məktubla Maliyyə Monitorinqi Xidmətinə göndərilir;

4.3.6. kağız daşıyıcıda bir neçə formanın göndərildiyi təqdirdə müşayiət məktubunda qoşmaların sayı göstərilməlidir.

**4.4.** Məlumatlar elektron formatda aşağıdakı qaydada təqdim olunur:

**4.4.1.** Məlumatları elektron formatda təqdim edən monitorinq subyektlərinin məsul şəxsləri Maliyyə Monitorinqi Xidməti tərəfindən Elektron imza üzrə sertifikasiya mərkəzinin Sertifikat qeydiyyat xidmətində qeydiyyatdan keçirilərək, elektron imza, habelə "İstifadəçi adı" və "Şifrə" ilə təmin olunurlar.

**4.4.2.** Qeydiyyatdan keçmiş monitorinq subyektlərinin məsul şəxsləri Maliyyə Monitorinqi Xidmətinin rəsmi internet səhifəsində onlara verilmiş "İstifadəçi adı" və "Şifrə"ni daxil etməklə elektron formatda olan məlumatları yükləmək və ya Maliyyə Monitorinqi Xidmətinin rəsmi internet səhifəsində yerləşdirilmiş "Məlumatların təqdim olunması forması"nı onlayn rejimində doldurmaq yolu ilə Maliyyə Monitorinqi Xidmətinə təqdim edirlər.

4.5. Bu Qaydalara əlavə edilmiş formadan başqa digər qaydada məlumatların Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməsinə yol verilmir.

4.6. Elektron formatda təqdim edilən məlumatlar AMİS-ə ötürülür və AMİS vasitəsi ilə avtomatlaşdırılmış qaydada qeydiyyata alınır.

4.7. Hüquqi şəxs olan monitorinq subyektlərinin filialları, nümayəndəlikləri və ya digər ayrıca bölmələri bu Qaydalarda nəzərdə tutulmuş məlumatları baş ofisləri vasitəsi ilə Maliyyə Monitorinqi Xidmətinə təqdim edirlər.

4.8. Kağız daşıyıcıda və ya elektron formatda tərtib edilmiş forma monitorinq subyektləri tərəfindən ən azı 5 il müddətinə saxlanılmalıdır.

4.9. Formada "ulduz" işarəsi ilə qeyd olunmuş bəndlər doldurulmadıqda, məlumatların məzmununda səhvlər olduqda, habelə məlumatlar bu Qaydalara əlavə

edilmiş formada təqdim edilmədikdə Maliyyə Monitorinqi Xidməti konkret pozuntu halını göstərən bildirişlə birlikdə təqdim olunmuş məlumatı dərhal monitorinq subyektinə məlumatın təqdim olunduğu rabitə kanalı vasitəsilə geri qaytarır.

4.10. Monitorinq subyekti tərəfindən bildirişdə nəzərdə tutulmuş pozuntular aradan qaldırılır və bildirişin alındığı gündən 2 iş günü müddətində yenidən tərtib olunmuş forma Maliyyə Monitorinqi Xidmətinə təqdim edilir.

4.11. Monitorinq subyekti konkret əsas göstərməklə əvvəl təqdim etdiyi məlumata düzəliş edilməsi üçün Maliyyə Monitorinqi Xidmətinə rəsmi məktubla müraciət edə bilər. Məktub monitorinq subyektinin rəhbər vəzifəli şəxsi tərəfindən imzalanmalıdır. Müraciətə Maliyyə Monitorinqi Xidməti tərəfindən 2 iş günü müddətində baxılır və müraciət əsaslı hesab edildikdə, Maliyyə Monitorinqi Xidməti tərəfindən monitorinq subyektinin məktubunda qeyd olunmuş məlumata düzəliş edilir və monitorinq subyektinə bu barədə məlumat verilir. Düzəliş edilmiş məlumatın ilkin nüsxəsi Maliyyə Monitorinqi Xidməti tərəfindən saxlanılır.

4.12. Maliyyə Monitorinqi Xidməti tərəfindən məlumatda aşkar edilmiş səhvin düzəlişi ilə əlaqədar monitorinq subyektinə müraciət edildikdə, təqdim olunmuş məlumatda düzəlişlər bu Qaydaların 4.11-ci bəndinə müvafiq qaydada həyata keçirilir.

## 5. FORMANIN DOLDURULMASI

**5.1.** Kağız daşıyıcıda və ya elektron formatda göndərilməsindən asılı olmayaraq məlumatlar formaya daxil edilməklə təqdim olunur.

5.2. Forma beş bölmədən və *qırx üç* bənddən ibarətdir.[4]

5.3. Formada bir ulduzla (*) işarələnmiş bəndlərin və onların daxilindəki bir ulduzla (*) işarələnmiş yarımbəndlərin doldurulması məcburidir.

5.4. Göndərən və ya alan tərəfin monitorinq subyektinin müştərisi olduğu hallarda forma üzrə iki ulduzla (**) işarələnmiş bəndlərin və yarımbəndlərin, habelə onların daxilindəki bir ulduzla (*) işarələnmiş yarımbəndlərin doldurulması məcburidir.

5.5. Formada üç ulduzla (***) işarələnmiş bəndlərdə və yarımbəndlərdə tələb olunan məlumatlar mövcud olduqda həmin bəndlərin və yarımbəndlərin, eləcə də onların daxilindəki bir ulduzla (*) işarələnmiş yarımbəndlərin doldurulması məcburidir.

5.6. "Məlumat" bölməsi monitorinq subyektinə və təqdim olunan məlumata dair informasiyanı əks etdirir. Bu bölməyə aşağıdakı bəndlər daxildir:

**5.6.1.** Formanın 1.1-ci bəndində monitorinq subyektinin adı göstərilir;

**5.6.2.** 1.2-ci bənddə məlumatın bilavasitə Maliyyə Monitorinqi Xidmətinə göndərildiyi tarix il, ay, gün, saat ardıcıllığı ilə "YYYY-MM-DDTHH:MM:SS" formatında qeyd edilir;

**5.6.3.** 1.3-cü bənddə monitorinq subyektinin təqdim etdiyi məlumatların ardıcıllığına uyğun olaraq "1" rəqəmindən başlayaraq məlumatın nömrəsi daxil edilir;

**5.6.4.** 1.4-cü bənddə bu Qaydalara 2 nömrəli Əlavədən istifadə edilərək bu Qaydaların 3.1-ci və ya 3.2-ci bəndində nəzərdə tutulmuş hallara uyğun gələn məlumatın təsnifat kodu daxil edilir;

**5.6.5.** 1.5-ci bənddə monitorinq subyektinin məlumatı tərtib etmiş filialının adı, məlumat monitorinq subyektinin baş ofisi tərəfindən tərtib olunduqda isə baş ofisin adı daxil edilir;

**5.6.6.** Maliyyə Monitorinqi Xidməti tərəfindən göndərilmiş sorğulara cavab olaraq məlumatların təqdim olunması zamanı, 1.6-cı bənddə Maliyyə Monitorinqi Xidmətinin sorğusunun nömrəsinə istinad daxil edilir;

**5.6.7.** Bu Qaydalara 2 nömrəli Əlavədə nəzərdə tutulmuş "STR" və "TFR" təsnifat kodları üzrə məlumatlar təqdim edildikdə, 1.7-ci bənddə həmin məlumatlar üzrə şübhəlilik üçün əsaslar icbari qaydada daxil edilməlidir. Bu bənd digər təsnifat kodlarına aid məlumatlar üzrə icbari xarakter daşımır;

**5.6.8.** "STR" və "TFR" təsnifat kodları üzrə məlumatlar təqdim edildikdə, 1.8-ci bənddə Maliyyə Monitorinqi Xidməti tərəfindən müəyyən edilmiş şübhəlilik indikatorlarından biri seçilərək daxil edilir;

**5.6.9.** 1.9-cu bənddə məlumatla bağlı əlavə qeydlər daxil edilir;

**5.6.10.** 1.10-cu bənddə monitorinq subyektinin ünvanına dair məlumatlar daxil edilir (bu Qaydaların 5.8.5.14-cü yarımbəndində göstərilən qaydada);

**5.6.11.** 1.11-ci bənddə monitorinq subyektinin məsul şəxsinə, məsul şəxs olmadıqda isə məlumatı təqdim edən digər şəxsə dair məlumatlar daxil edilir. 1.11.5-ci yarımbənddə monitorinq subyektinin məsul şəxsinin telefonu haqqında məlumat bu Qaydaların 5.8.5.15-ci yarımbəndində göstərilən qaydada daxil edilir.

**5.7.** "Əməliyyat" bölməsi əməliyyatlar haqqında informasiyanı əks etdirir. Bu bölməyə aşağıdakı bəndlər daxildir:

**5.7.1.** 2.1.-ci bənddə monitorinq subyekti tərəfindən hər bir əməliyyata verilən unikal nömrə daxil edilir. Əməliyyatın nömrəsi qismində monitorinq subyekti tərəfindən aparılan əməliyyatların müxabirləşmə nömrəsi, yaxud "1" rəqəmindən başlayaraq ardıcıllıqla davam edən digər nömrə və ya Maliyyə Monitorinqi Xidmətinin rəsmi internet səhifəsində yerləşdirilmiş "Məlumatların təqdim olunması forması"nda avtomatik qaydada müəyyən edilən nömrə istifadə oluna bilər. Əməliyyatın nömrəsi heç bir halda təkrarlanmamalıdır;

**5.7.2.** 2.2-ci bənddə, əməliyyat icra olunmuşdursa, əməliyyatın həyata keçirildiyi tarix göstərilir. Əməliyyat icra olunmamışdırsa, bu qrafada əməliyyatın aparılmasına dair müraciətin monitorinq subyektinə təqdim olunduğu tarix daxil edilir;

**5.7.3.** 2.3-cü bənddə bu Qaydalara 3 nömrəli Əlavədən istifadə edilərək əməliyyatın növü daxil edilir. 2.3.1-ci yarımbənddə əməliyyatın növünə dair əlavə məlumatlar qeyd oluna bilər;

**5.7.4.** Əməliyyatın hansı valyutada aparılmasından asılı olmayaraq, 2.4-cü bənddə əməliyyatın məbləğinin manat ekvivalenti daxil edilir. Əməliyyatda hər hansı məbləğin olmadığı təqdirdə, əməliyyatın məbləği "0" qeyd olunur;

**5.7.5.** 2.5-ci bənddə əməliyyatın icra statusundan asılı olaraq, "İcra olunmuşdur" və ya "İcra olunmamışdır" seçimlərindən biri daxil edilir;

~~**5.7.6.** Əməliyyatın axşam kassasından həyata keçirilib-keçirilməməsindən asılı olaraq, 2.6-cı bənddə müvafiq qrafa "x" simvolu ilə aydın şəkildə işarələnir. 2.6-cı bənddə "Bəli" seçildikdə, 2.6.1-ci yarımbənddə axşam kassasına mədaxil etmənin tarixi il, ay, gün, saat ardıcıllığı ilə "YYYY-MM-DDTHH:MM:SS" formatında daxil edilir;~~[5]

**5.7.7.** 2.7-ci bənddə *əməliyyatın həyata keçirildiyi monitorinq subyektinin struktur bölməsinin yerləşdiyi şəhərin (rayonun) kodu;*[6]

**5.7.8.** 2.8-ci bənddə əməliyyatın təyinatı daxil edilir.

**5.8.** “Göndərən tərəf” bölməsi vəsaiti ödəyən və ya göndərən tərəf haqqında informasiyanı əks etdirir. Bu bölməyə aşağıdakı bəndlər daxildir:

5.8.1. 3.1-ci bənddə bu Qaydalara 4 nömrəli Əlavədən istifadə edilərək göndərilən vəsaitin növü daxil edilir. 3.1-ci bənddə vəsaitin növü "Digər" seçildikdə, 3.1.1-ci yarımbənddə həmin vəsaitin növünə dair şərh qeyd olunmalıdır;

5.8.2. 3.2-ci bənddə bu Qaydalara 5 nömrəli Əlavədən istifadə edilərək əməliyyatın başlandığı ölkənin adı daxil edilir;

5.8.3. Vəsait xarici valyutada göndərildikdə, 3.3-cü bəndin 3.3.1-ci yarımbəndində bu Qaydalara 6 nömrəli Əlavədən istifadə edilərək xarici valyutanın növü, 3.3.2-ci yarımbəndində həmin valyutanın məzənnəsi və 3.3.3-cü yarımbəndində vəsaitin xarici valyutada olan məbləği daxil edilir;

5.8.4. Göndərən tərəf əməliyyatın növündən asılı olaraq fiziki şəxs və ya hesab ola bilər. Hüquqi şəxs göndərən tərəf qismində yalnız hesabın tərkib elementi olaraq qeyd edilməlidir;

**5.8.5.** Göndərən tərəf fiziki şəxs olduqda, 3.4-cü bənd üzrə tələb olunan aşağıdakı məlumatlar daxil edilir:

**5.8.5.1.** 3.4.1-ci yarımbənddə - cinsi;

**5.8.5.2.** 3.4.2-ci yarımbənddə - adı (fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənəddə yazıldığı qaydada daxil edilməlidir);

**5.8.5.3.** 3.4.3-cü yarımbənddə - soyadı (fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənəddə yazıldığı qaydada daxil edilməlidir);

**5.8.5.4.** 3.4.4-cü yarımbənddə - ata adı (fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənəddə yazıldığı qaydada daxil edilməlidir);

**5.8.5.5.** 3.4.5-ci yarımbənddə - fərdi identifikasiya nömrəsi (Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin pin kodu);

**5.8.5.6.** 3.4.6-cı yarımbənddə - doğulduğu yer - Azərbaycan Respublikasının şəhər, rayon və digər yaşayış məntəqələrinin adları Azərbaycan dilində və hər-hansı əlavə qeydlər *(məsələn: şəhəri, şəh., ş.; rayonu, ray., r.; kəndi, k; qəsəbəsi, qəs. və s.)* olmadan daxil edilməlidir ***(Nümunə: Bakı, Gəncə, Qəbələ** və s.)*. Digər ölkələrin yaşayış məntəqələrinin adları sərbəst şəkildə daxil edilə bilər);

**5.8.5.7.** 3.4.7-ci yarımbənddə - doğulduğu tarix (il, ay, gün ardıcıllığı ilə "YYYY-MM-DD" formatında);

**5.8.5.8.** 3.4.8-ci yarımbənddə - yaşadığı ölkə (bu Qaydalara 5 nömrəli Əlavədən istifadə edilməklə);

**5.8.5.9.** 3.4.9-cu yarımbənddə - elektron poçt ünvanı;

**5.8.5.10.** 3.4.10-cu yarımbənddə - vətəndaşı olduğu ölkə (bu Qaydalara 5 nömrəli Əlavədən istifadə edilməklə);

**5.8.5.11.** 3.4.11-ci yarımbənddə - *vəsaitin formalaşma əsası haqqında aşağıdakı məlumatlar;*[7]

***5.8.5.11.1.*** *3.4.11.1-ci yarımbənddə - Fəaliyyət istiqaməti;*

***5.8.5.11.2***. *3.4.11.2-ci yarımbənddə - Peşəsi;*

***5.8.5.11.3***. *3.4.11.3-cü yarımbənddə - Gəlir mənbəyi.*

**5.8.5.12.** 3.4.12-ci yarımbənddə - şəxsiyyətini təsdiq edən sənəd haqqında aşağıdakı məlumatlar:

**5.8.5.12.1.** 3.4.12.1-ci yarımbənddə - sənədin növü (bu Qaydalara 7 nömrəli Əlavədən istifadə edilməklə);

**5.8.5.12.2.** 3.4.12.2-ci yarımbənddə - seriyası və nömrəsi (fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənəddə yazıldığı qaydada daxil edilməlidir);

**5.8.5.12.3.** 3.4.12.3-cü yarımbənddə - verilmə tarixi (il, ay, gün ardıcıllığı ilə "YYYY-MM-DD" formatında);

**5.8.5.12.4.** 3.4.12.4-cü yarımbənddə - etibarlılıq müddəti (il, ay, gün ardıcıllığı ilə "YYYY-MM-DD" formatında);

**5.8.5.12.5.** 3.4.12.5-ci yarımbənddə - verən orqanın adı;

**5.8.5.12.6.** 3.4.12.6-cı yarımbənddə - verildiyi ölkə (bu Qaydalara 5 nömrəli Əlavədən istifadə edilməklə).

**5.8.5.13.** Göndərən tərəf sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduqda, 3.4.12-ci yarımbənddə onun VÖEN-i haqqında məlumat daxil edilir.

**5.8.5.14.** 3.4.13-cü yarımbənddə - ünvanı haqqında aşağıdakı məlumatlar:

**5.8.5.14.1.** 3.4.13.1-ci yarımbənddə - ünvanın təyinatı (bu Qaydalara 8 nömrəli Əlavədən istifadə edilməklə);

**5.8.5.14.2.** 3.4.13.2-ci yarımbənddə - küçənin adı və nömrəsi - Azərbaycan Respublikasının şəhər, rayon və digər yaşayış məntəqələrinin küçə, prospekt və digər yaşayış massivlərinin adları Azərbaycan dilində və hər-hansı əlavə qeydlər *(məsələn: küçəsi, küç., k; prospekti, pr., p. və s.)* olmadan daxil edilməlidir *(**Nümunə: Bül-Bül 40**)*. Digər ölkələrin yaşayış məntəqələrinin adları sərbəst şəkildə daxil edilə bilər);

**5.8.5.14.3.** 3.4.13.3-cü yarımbənddə - şəhər (bu Qaydaların 5.8.5.6-cı yarımbəndində göstərilən qaydada);

**5.8.5.14.4.** 3.4.13.4-cü yarımbənddə - rayon (bu Qaydaların 5.8.5.6-cı yarımbəndində göstərilən qaydada);

**5.8.5.14.5.** 3.4.13.5-ci yarımbənddə - poçt indeksi;

**5.8.5.14.6.** 3.4.13.6-cı yarımbənddə - ölkə (bu Qaydalara 5 nömrəli Əlavədən istifadə edilməklə).

**5.8.5.15.** 3.4.14-cü yarımbənddə - telefonu haqqında aşağıdakı məlumatlar:

**5.8.5.15.1.** 3.4.14.1-ci yarımbənddə - telefon nömrəsinin təyinatı (bu Qaydalara 8 nömrəli Əlavədən istifadə edilməklə);

**5.8.5.15.2.** 3.4.14.2-ci yarımbənddə - əlaqə vasitəsinin növü (bu Qaydalara 9 nömrəli Əlavədən istifadə edilməklə);

**5.8.5.15.3.** 3.4.14.3-cü yarımbənddə - operatorun kodu *(**Nümunə: 012, 050, 055, 070 və s.**)*;

**5.8.5.15.4.** 3.4.14.4-cü yarımbənddə - telefon nömrəsi (Ölkə və/və ya operator kodları qeyd olunmadan, telefon nömrəsinin rəqəmləri ardıcıl şəkildə, yəni hər-hansı ayırıcı işarə olmadan daxil edilməlidir ***(Nümunə: 5982056))***;

**5.8.5.15.5.** 3.4.14.5-ci yarımbənddə - daxili telefon nömrəsi.

**5.8.5.16.** 3.4.15-ci yarımbənddə - iş yeri haqqında aşağıdakı məlumatlar:

**5.8.5.16.1.** 3.4.15.1-ci yarımbənddə - iş yerinin adı;

**5.8.5.16.2.** 3.4.15.2-cü yarımbənddə - iş yerinin ünvanı (bu Qaydaların 5.8.5.14-cü yarımbəndində göstərilən qaydada);

**5.8.5.16.3.** 3.4.15.3-cü yarımbənddə - iş yerinin telefonu (bu Qaydaların 5.8.5.15-ci yarımbəndində göstərilən qaydada).

**5.8.6.** Göndərən tərəf hesab olduqda, 3.5-ci bənd üzrə tələb olunan aşağıdakı məlumatlar daxil edilir:

**5.8.6.1.** 3.5.1-ci yarımbənddə - hesabın nömrəsi (Hesabın nömrəsinin simvolları ardıcıl şəkildə, yəni hər-hansı ayırıcı işarə olmadan qeyd olunmalıdır ***(Nümunə: 38478455484545541USD))***;

**5.8.6.2.** 3.5.2-ci yarımbənddə - hesabın açıldığı valyuta (bu Qaydalara 6 nömrəli Əlavədən istifadə edilməklə);

**5.8.6.3.** 3.5.3-cü yarımbənddə - bank və ya qeyri-bank təşkilatı olmasından asılı olaraq, hesaba xidmət göstərən müəssisənin növü;

**5.8.6.4.** 3.5.4-cü yarımbənddə - hesaba xidmət göstərən müəssisənin adı;

**5.8.6.5.** 3.5.5-ci yarımbənddə - SWIFT və ya digər kod olmasından asılı olaraq, hesaba xidmət göstərən müəssisənin kodunun növü;

**5.8.6.6.** 3.5.6-cı yarımbənddə - hesaba xidmət göstərən müəssisənin SWIFT və ya digər kodu;

**5.8.6.7.** 3.5.7-ci yarımbənddə - hesabın açılma tarixi (il, ay, gün ardıcıllığı ilə "YYYY-MM-DD" formatında);

**5.8.6.8.** 3.5.8-ci yarımbənddə - hesabın bağlanma tarixi (il, ay, gün ardıcıllığı ilə "YYYY-MM-DD" formatında);

**5.8.6.9.** 3.5.9-cu yarımbənddə - hesabın hazırkı statusu (bu Qaydalara 10 nömrəli Əlavədən istifadə edilməklə);

**5.8.6.10.** 3.5.10-cu yarımbənddə - hesabdakı *qalıq*;[8]

**5.8.6.11.** 3.5.11-ci yarımbənddə - hesaba xidmət göstərən müəssisənin IBAN kodu;

**5.8.6.12.** 3.5.12-ci yarımbənddə - hesabın növü (bu Qaydalara 11 nömrəli Əlavədən istifadə edilməklə);

**5.8.6.13.** 3.5.13-cü yarımbənddə - hesaba xidmət göstərən müəssisənin filialının adı.

**5.8.6.14.** Hesab hüquqi şəxsə məxsus olduqda 3.5.14-cü bənd üzrə tələb olunan aşağıdakı məlumatlar daxil edilir:

**5.8.6.14.1.** 3.5.14.1-ci yarımbənddə - hüquqi şəxsin adı ("Dırnaq" işarəsi (" " və ya « ») olmadan və təşkilati-hüquqi forma qeyd olunmadan hüquqi şəxsin təsis sənədlərində yazıldığı qaydada daxil edilməlidir);

**5.8.6.14.2.** 3.5.14.2-ci yarımbənddə - təşkilati hüquqi forması (bu Qaydalara 12 nömrəli Əlavədən istifadə edilməklə);

**5.8.6.14.3.** 3.5.14.3-cü yarımbənddə - fəaliyyət istiqaməti;

**5.8.6.14.4.** 3.5.14.4-cü yarımbənddə - dövlət qeydiyyatına alındığı zaman hüquqi şəxsə verilən ~~nömrə və ya~~ VÖEN (Müvafiq nömrənin simvolları ardıcıl şəkildə, yəni hər-hansı ayırıcı işarə olmadan qeyd olunmalıdır ***(Nümunə: 3847845548)****)*;[9]

***5.8.6.14.4-1.*** *3.5.14.4-1-ci yarımbənddə - dövlət qeydiyyatına alındığı zaman hüquqi şəxsə verilən nömrə (müvafiq nömrənin simvolları ardıcıl şəkildə, yəni hər-hansı ayırıcı işarə olmadan qeyd olunmalıdır)*

**5.8.6.14.5.** 3.5.14.5-ci yarımbənddə - dövlət qeydiyyatına alındığı tarix (il, ay, gün ardıcıllığı ilə "YYYY-MM-DD" formatında);

**5.8.6.14.6.** 3.5.14.6-cı yarımbənddə - *qeydiyyatdan keçdiyi* şəhər və ya rayon (bu Qaydaların 5.8.5.6-cı yarımbəndində göstərilən qaydada);[10]

**5.8.6.14.7.** 3.5.14.7-ci yarımbənddə - *qeydiyyatdan keçdiyi* ölkə (bu Qaydalara 5 nömrəli Əlavədən istifadə edilməklə);[11]

**5.8.6.14.8.** 3.5.14.8-ci yarımbənddə - elektron poçt ünvanı;

**5.8.6.14.9.** 3.5.14.9-cu yarımbənddə - hüquqi şəxsin ünvanı (bu Qaydaların 5.8.5.14-cü yarımbəndində göstərilən qaydada);

**5.8.6.14.10.** 3.5.14.10-cu yarımbənddə - hüquqi şəxsin telefonu (bu Qaydaların 5.8.5.15-ci yarımbəndində göstərilən qaydada);

***5.8.6.14.11.*** *3.5.14.11-ci yarımbənddə - hüquqi şəxsin təsisçisi/səhmdarı haqqında aşağıdakı məlumatlar. Burada hüquqi şəxsin təsisçisi/səhmdarı dedikdə səhmdar kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında səhmdarı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahiblik başa düşülür.* [12]

***5.8.6.14.11.1.*** *3.5.14.11.1-ci yarımbənddə - Fiziki şəxsə dair məlumatlar (Adı, soyadı, atasının adı, doğulduğu tarix, e-mail)*

***5.8.6.14.11.2.*** *3.5.14.11.2-ci yarımbənddə - Hüquqi şəxsə dair məlumatlar (Adı, qeydiyyat nömrəsi, VÖEN)*

***5.8.6.14.11-1.*** *3.5.14.11-1-ci yarımbənddə - hüquqi şəxsin icra orqanının rəhbəri olan fiziki şəxs haqqında aşağıdakı məlumatlar:* [13]

***5.8.6.14.11-1.1.*** *3.5.14.11-1.1-ci yarımbənddə - adı (bu Qaydaların 5.8.5.2-ci yarımbəndində göstərilən qaydada);*

***5.8.6.14.11-1.2.*** *3.5.14.11-1.2-ci yarımbənddə - soyadı (bu Qaydaların 5.8.5.3-cü yarımbəndində göstərilən qaydada);*

***5.8.6.14.11-1.3.*** *3.5.14.11-1.3-cü yarımbənddə - atasının adı (bu Qaydaların 5.8.5.4-cü yarımbəndində göstərilən qaydada);*

***5.8.6.14.11-1.4.*** *3.5.14.11-1.4-cü yarımbənddə - doğulduğu tarix (il, ay, gün ardıcıllığı ilə "YYYY-MM-DD" formatında);*

***5.8.6.14.11-1.5.*** *3.5.14.11-1.5-ci yarımbənddə - elektron poçt ünvanı.*

**5.8.6.15.** 3.5.15-ci yarımbənddə hesab üzrə imza hüququ olan fiziki şəxs haqqında məlumatlar daxil edilir (bu Qaydaların 5.8.5-ci yarımbəndində göstərilən qaydada);

**5.9.** "Alan tərəf" bölməsi vəsait ödənilən və ya vəsaiti alan tərəf haqqında informasiyanı əks etdirir. Bu bölməyə aşağıdakı bəndlər daxildir:

**5.9.1.** 4.1-ci bənddə bu Qaydalara 4 nömrəli Əlavədən istifadə edilərək daxil olan vəsaitin növü qeyd olunur. 4.1-ci bənddə vəsaitin növü "Digər" seçildikdə, 4.1.1-ci yarımbənddə həmin vəsaitin növünə dair şərh qeyd olunmalıdır.

**5.9.2.** 4.2-ci bənddə bu Qaydalara 5 nömrəli Əlavədən istifadə edilərək əməliyyatın başa çatdığı ölkənin adı daxil edilir.

**5.9.3.** Vəsait xarici valyutada daxil olduqda, 4.3-cü bəndin 4.3.1-ci yarımbəndində bu Qaydalara 6 nömrəli Əlavədən istifadə edilərək xarici valyutanın növü, 4.3.2-ci yarımbəndində həmin valyutanın məzənnəsi və 4.3.3-cü yarımbəndində vəsaitin xarici valyutada olan məbləği daxil edilir.

**5.9.4.** Alan tərəf əməliyyatın növündən asılı olaraq fiziki şəxs və ya hesab ola bilər. Hüquqi şəxs alan tərəf qismində yalnız hesabın tərkib elementi olaraq qeyd edilməlidir. Bu bölmənin 4.4-cü və 4.5-ci bəndləri bu Qaydaların 5.8.5,-ci və 5.8.6-cı yarımbəndlərində göstərilən qaydada doldurulur.

5.10. "Nümayəndə" bölməsi "Göndərən tərəfi" və ya "Alan tərəfi" təmsil edən nümayəndə haqqında informasiyam əks etdirir. Bu bölmə bu Qaydaların 5.8.5-ci yarımbəndində göstərilən qaydada doldurulur.

5.11. Formanın mətnində müvafiq məlumatlar Azərbaycan dilində çap hərfləri ilə daxil edilməli və sözlər arasında məsafə buraxılmalıdır. "Göndərən tərəf" və ya "Alan tərəf" haqqında müvafiq eyniləşdirmə məlumatları hər-hansı xarici dildə olduqda, sözügedən məlumatlar həmin xarici dildə daxil edilə bilər.

5.12. Məlumatlar əllə daxil edildikdə diyircəkli qələmdən (qara və ya göy rəngli) istifadə edilməklə səliqə ilə yazılmalıdır. Məlumatların əllə doldurulması zamanı düzəlişlərin edilməsinə yol verilmir.

5.13. Məlumat kağız daşıyıcıda göndərildiyi zaman monitorinq subyektinin məsul şəxsi tərəfindən imzalanır və monitorinq subyektinin möhürü vurulur.

5.14. Elektron formatda təqdim olunan məlumatlar elektron imza ilə təsdiqlənir.

5.15. Formanın doldurulması və ya göndərilməsi ilə bağlı texniki və ya digər problemlər olduqda monitorinq subyekti "qaynar xətt" vasitəsilə telefonla və ya yazılı qaydada Maliyyə Monitorinqi Xidmətinə müraciət edir.

## 6. MƏLUMATLARIN TƏQDİM EDİLMƏSİ İLƏ BAĞLI MÜDDƏTLƏR

**6.1.** Bu Qaydaların 3.1-ci bəndinə əsasən icra olunan əməliyyatlara dair məlumatlar həmin əməliyyatların icra olunması haqqında sifarişin (tapşırığın) alınmasından 3 iş günü ərzində monitorinq iştirakçıları tərəfindən Maliyyə Monitorinqi Xidmətinə təqdim edilir.

**6.2.** Bu Qaydaların 3.2-ci bəndində nəzərdə tutulmuş hallarda həyata keçirilmiş əməliyyatlara dair məlumatlar həmin əməliyyatın icra olunmasından əvvəl təqdim edilməlidir. Əməliyyatın icra olunmaması mümkün deyildirsə və ya əməliyyatın icra olunmamasının benefisiarın müəyyənləşməsinə maneə yaradacağı məlumdursa, monitorinq subyektləri əməliyyatın icrasından dərhal sonra Maliyyə Monitorinqi Xidmətinə məlumat verməlidirlər.

## 7. MALİYYƏ MONİTORİNQİ XİDMƏTİNİN SORĞUSU ƏSASINDA MƏLUMATLARIN TƏQDİM EDİLMƏSİ

7.1. *Qanunla nəzərdə tutulmuş hallarda Maliyyə Monitorinqi Xidməti həyata keçirilmiş əməliyyatlara dair məlumatların təqdim edilməsi barədə sorğu verdikdə, monitorinq subyektləri sorğuda başqa müddət nəzərdə tutulmayıbsa, məlumatları sorğunun alındığı gündən bir iş günü müddətində təqdim etməlidirlər.*[14]

~~7.2. Maliyyə Monitorinqi Xidməti, həmçinin öz səlahiyyətləri daxilində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində xarici dövlətin səlahiyyətli orqanları ilə qarşılıqlı informasiya mübadiləsinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq monitorinq subyektlərinə həyata keçirilmiş əməliyyatlara dair məlumatların təqdim edilməsi barədə sorğu verə bilər.~~[15]

~~7.3. Maliyyə Monitorinqi Xidmətinin sorğusuna əsasən monitorinq subyektləri bu Qaydaların 7.1-ci və 7.2-ci bəndlərində nəzərdə tutulmuş məlumatları, sorğuda başqa müddət nəzərdə tutulmayıbsa, sorğunun alındığı gündən bir iş günü müddətində təqdim etməlidirlər.~~

7.4. Monitorinq subyektləri sorğuda nəzərdə tutulmayan, lakin cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə faydalı ola biləcək məlumatları və sənədləri öz təşəbbüsləri ilə təqdim edə bilərlər.

7.5. Məlumatların təqdim edilməsi barədə sorğular Maliyyə Monitorinqi Xidməti tərəfindən kağız daşıyıcıda və ya elektron formatda Maliyyə Monitorinqi Xidmətinin xüsusi rabitə kanalı vasitəsilə göndərilir.

7.6. Maliyyə Monitorinqi Xidmətinin göndərdiyi sorğu əsasında məlumat kağız daşıyıcıda təqdim olunduğu zaman, monitorinq subyektinin məsul şəxsi tərəfindən imzalanır, monitorinq subyektinin möhürü ilə təsdiqlənir, bütövlüyü pozulmadan açılması mümkün olmayan, işıq keçirməyən kağızdan hazırlanmış zərfə qoyularaq möhürlənir, rəsmi təqdimetmə qaydasında və ya sifarişli poçt rabitəsi vasitəsilə bildirişli məktubla Maliyyə Monitorinqi Xidmətinə göndərilir.

7.7. Maliyyə Monitorinqi Xidmətinin göndərdiyi sorğu əsasında məlumat elektron formatda təqdim olunduğu zaman, elektron imza ilə təsdiqlənir.

*«Monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər tərəfindən məlumatların Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinə təqdim olunması Qaydaları»na*
*Əlavə №1*

**Maliyyə Monitorinqi Xidmətinə məlumatların təqdim edilməsi**

**FORMASI**

*Bir ulduzla (*) işarələnmiş bəndlərin və onların daxilindəki bir ulduzla (*) işarələnmiş yarımbəndlərin doldurulması məcburidir.*

*Göndərən və ya alan tərəfin monitorinq subyektinin müştərisi olduğu hallarda forma üzrə iki ulduzla (**) işarələnmiş bəndlərin və yarımbəndlərin, habelə onların daxilindəki bir ulduzla (*) işarələnmiş yarımbəndlərin doldurulması məcburidir.*

*Üç ulduzla (***) işarələnmiş bəndlərdə və yarımbəndlərdə tələb olunan məlumatlar mövcud olduqda həmin bəndlərin və yarımbəndlərin, eləcə də onların daxilindəki bir ulduzla (*) işarələnmiş yarımbəndlərin doldurulması məcburidir.*

| I. MƏLUMAT | | |
|---|---|---|
| 1.1. | Monitorinq subyektinin adı:* | |
| 1.2. | Məlumatın tarixi:* | |
| 1.3. | Məlumatın nömrəsi: | |
| 1.4. | Məlumatın təsnifat kodu:* | |
| 1.5. | Monitorinq subyektinin filialının adı:* | |
| 1.6. | İstinad nömrəsi: | |
| 1.7. | Şübhəlilik üçün əsaslar:*** | |
| 1.8. | Şübhəlilik indikatoru: | |
| 1.9. | Qeydlər: | |
| 1.10. | Monitorinq subyektinin ünvanı* | |
| 1.10.1. | Ünvanın təyinatı:* | |
| 1.10.2. | Küçənin adı və nömrəsi:* | |
| 1.10.3. | Şəhər:* | |
| 1.10.4. | Rayon: | |
| 1.10.5. | Poçt indeksi: | |
| 1.10.6. | Ölkə:* | |
| 1.11. | Məsul şəxs haqqında məlumat* | |
| 1.11.1. | Adı:* | |
| 1.11.2. | Soyadı:* | |
| 1.11.3. | Vəzifəsi: | |
| 1.11.4. | E-mail: | |
| 1.11.5. | Telefon* | |

| | |
|---|---|
| 1.11.5.1. Telefon nömrəsinin təyinatı:* | |
| 1.11.5.2. Əlaqə vasitəsi:* | |
| 1.11.5.3. Operatorun kodu: | |
| 1.11.5.4. Telefon nömrəsi:* | |
| 1.11.5.5. Daxili nömrə: | |
| **II. ƏMƏLİYYAT** | |
| 2.1. Əməliyyatın nömrəsi:* | |
| 2.2. Əməliyyatın tarixi:* | |
| 2.3. Əməliyyatın növü:* | |
| 2.3.1. Əməliyyat növünə dair şərh: | |
| 2.4. Əməliyyatın məbləği (manatla):* | |
| 2.5. Əməliyyatın icra statusu:* | ☐ İcra olunub; ☐ İcra olunmayıb |
| ~~2.6. Axşam kassasına mədaxil:*~~ [16] | ~~☐ Bəli; ☐ Xeyr~~ |
| 2.6.1. Mədaxilə qəbul etmə tarixi: | |
| 2.7. *Əməliyyatın həyata keçirildiyi monitorinq subyektinin struktur bölməsinin yerləşdiyi şəhərin (rayonun) kodu:** [17] | |
| 2.8. Əməliyyatın təyinatı: *[18] | |
| **III. GÖNDƏRƏN TƏRƏF** | |
| 3.1. Vəsaitin növü:* | |
| 3.1.1. Vəsaitin növünə dair şərh: | |
| 3.2. Əməliyyatın başlandığı ölkə:* | |
| 3.3. Xarici valyuta*** | |
| 3.3.1. Xarici valyutanın növü:* | |
| 3.3.2. Məzənnə:* | |
| 3.3.3. Məbləğ:* | |
| 3.4. Fiziki şəxs haqqında məlumat*** | |
| 3.4.1. Cinsi: ** [19] | ~~☐ məlum deyil;~~ ☐ kişi; ☐ qadın |
| 3.4.2. Adı:* | |
| 3.4.3. Soyadı:* | |
| 3.4.4. Ata adı:** [20] | |
| 3.4.5. Fin.: **[21] | |
| 3.4.6. Doğulduğu yer:** | |
| 3.4.7. Doğulduğu tarix:** | |
| 3.4.8. Yaşadığı ölkə: | |
| 3.4.9. E-mail: | |
| 3.4.10. Vətəndaşlığı:** | |
| 3.4.11. *Vəsaitin formalaşma əsası:***[22] | |
| *3.4.11.1. Fəaliyyət istiqaməti:** | |
| *3.4.11.2. Peşəsi:** | |
| *3.4.11.3.Gəlir mənbəyi:** | |
| 3.4.12. Şəxsiyyəti təsdiq edən sənəd ** | |
| 3.4.12.1. Sənədin növü:* | |
| 3.4.12.2. Seriyası və nömrəsi:* | |
| 3.4.12.3. Verilmə tarixi:* | |

| | |
|---|---|
| 3.4.12.4. Etibarlılıq müddəti: *[23] | |
| 3.4.12.5. Verən orqanın adı: * [24] | |
| 3.4.12.6. Verildiyi ölkə:* | |
| 3.4.13. Ünvan** | |
| 3.4.13.1. Ünvanın təyinatı:* | |
| 3.4.13.2. Küçənin adı və nömrəsi:* | |
| 3.4.13.3. Şəhər:* | |
| 3.4.13.4. Rayon: | |
| 3.4.13.5. Poçt indeksi: | |
| 3.4.13.6. Ölkə:* | |
| 3.4.14. Telefon*** | |
| 3.4.14.1. Telefon nömrəsinin təyinatı:* | |
| 3.4.14.2. Əlaqə vasitəsi:* | |
| 3.4.14.3. Operatorun kodu: | |
| 3.4.14.4. Telefon nömrəsi:* | |
| 3.4.14.5. Daxili nömrə: | |
| 3.4.15. İş yeri haqqında məlumat**[25] | |
| 3.4.15.1. İş yerinin adı:* | |
| 3.4.15.2. İş yerinin ünvanı* | |
| 3.4.15.2.1. Ünvanın təyinatı:* | |
| 3.4.15.2.2. Küçənin adı və nömrəsi:* | |
| 3.4.15.2.3. Şəhər:* | |
| 3.4.15.2.4. Rayon: | |
| 3.4.15.2.5. Poçt indeksi: | |
| 3.4.15.2.6. Ölkə:* | |
| 3.4.15.3. İş yerinin telefonu*** | |
| 3.4.15.3.1. Telefon nömrəsinin təyinatı:* | |
| 3.4.15.3.2. Əlaqə vasitəsi:* | |
| 3.4.15.3.3. Operatorun kodu: | |
| 3.4.15.3.4. Telefon nömrəsi:* | |
| 3.4.15.3.5. Daxili nömrə: | |
| 3.5. Hesab haqqında məlumat*** | |
| 3.5.1. Hesabın nömrəsi:* | |
| 3.5.2. Hesabın açıldığı valyuta:** | |
| 3.5.3. Hesaba xidmət göstərən müəssisənin növü:* | ☐ Bank; ☐ Qeyri-bank təşkilatı |
| 3.5.4. Hesaba xidmət göstərən müəssisənin adı:* | |
| 3.5.5. Kodun növü:* | ☐ SWIFT; ☐ Kod |
| 3.5.6. Kod:* | |
| 3.5.7. Hesabın açılma tarixi:** | |
| 3.5.8. Hesabın bağlanma tarixi: ** [26] | |
| 3.5.9. Hesabın hazırkı statusu: | |
| 3.5.10. *Hesabdakı qalıq:****[27] | |
| 3.5.11. IBAN Kodu: * [28] | |
| 3.5.12. Hesabın növü: ** [29] | |

| | |
|---|---|
| 3.5.13. Hesaba xidmət göstərən filialın adı: **[30] | |
| 3.5.14. Hüquqi şəxs haqqında məlumat *** | |
| 3.5.14.1. Hüquqi şəxsin adı:* | |
| 3.5.14.2. Təşkilati-hüquqi forması: ** | |
| 3.5.14.3. Fəaliyyət istiqaməti: **[31] | |
| 3.5.14.4. ~~Qeydiyyat nömrəsi və ya~~ VÖEN: **[32] | |
| *3.5.14.4-1. Qeydiyyat nömrəsi:****[33] | |
| 3.5.14.5. Qeydiyyat tarixi: ** | |
| 3.5.14.6. *Qeydiyyatdan keçdiyi rayon/şəhər:***[34] | |
| 3.5.14.7. *Qeydiyyatdan keçdiyi ölkə:**[35] | |
| 3.5.14.8. E-mail: | |
| 3.5.14.9. Hüquqi şəxsin ünvanı ** | |
| 3.5.14.9.1. Ünvanın təyinatı:* | |
| 3.5.14.9.2. Küçənin adı və nömrəsi:* | |
| 3.5.14.9.3. Şəhər:* | |
| 3.5.14.9.4. Rayon: | |
| 3.5.14.9.5. Poçt indeksi: | |
| 3.5.14.9.6. Ölkə:* | |
